**Son dəyişilmə tarixi:** *02.12.2021*

## “PAŞA Həyat Sığorta” ASC-nin

*(https://www.pasha-life.az veb saytı üzrə)*

# MƏXFİLİK SİYASƏTİ

**Giriş**

“PAŞA Həyat Sığorta” ASC (bundan sonra “PAŞA Həyat Sığorta”, “bizi”, “biz” və ya “bizim” kimi adlandırılacaq) məxfiliyə, məlumatların qorunması üzrə tətbiq oluna bilən tədbirlərə və şəxsi həyatın toxunulmazlığı haqqında qanunlara əməl etmək öhdəliyi götürür.

**Bu siyasət nəyi tənzimləyir?**

Bu veb saytdan istifadə edərkən və təklif etdiyimiz xidmətlərdən yararlanarkən Sizinlə bağlı əldə olunan fərdi məlumatların hansı formada istifadə olunacağı və necə qorunacağı hazırkı “Məxfilik siyasəti”ndə qeyd edilən qaydada tənzimlənir.

“Məxfilik siyasəti” https://www.pasha-life.az veb saytında toplanan məlumatlara aiddir və bu veb sayta öz fərdi məlumatlarınızı daxil etməklə və veb saytdan istifadə etməklə həmin məlumatların “PAŞA Həyat Sığorta” ASC tərəfindən toplanmasına və işlənməsinə icazə vermiş olursunuz. Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, “PAŞA Həyat Sığorta” ASC yalnız sizin tərəfinizdən veb sayta daxil edilmiş fərdi məlumatları toplayır və işləyir. Siz hər hansı fərdi məlumatınızı açıqlamadan www.pasha-life.az veb-saytına daxil ola bilərsiniz.

**Anlayışlar.**

- *Veb sayt* - https://www.pasha-life.az
- *Fərdi məlumatlar* — şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat. Sığorta sirri hesab edilən məlumatlar da fərdi məlumatlar hesab edilir.
- *Fərdi məlumatların toplanılması* — şəxs barəsində fərdi məlumatların qanuna uyğun olaraq əldə edilməsi;
- *Fərdi məlumatların işlənilməsi* - fərdi məlumatlar üzərində aparılan əməliyyatlar (fərdi məlumatların yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanması, ötürülməsi, məhv edilməsi)

**1. Fərdi məlumatları qoruma öhdəliyi.**

Konfidensial fərdi məlumatlarınızın məxfiliyinin qorunması bizim üçün vacib amillərdən biri olduğuna görə, bununla bağlı tərəfimizdən lazımi texniki-təşkilati tədbirlər görülmüşdür. Tərəfimizdən toplanılacaq və işləniləcək fərdi məlumatlarınız müvafiq qanunla qorunur. Nəzərinizə çatdırırıq ki, “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 2-ci bəndinin tələbinə uyğun olaraq, konfidensial fərdi məlumatlarınız qanunla müəyyən olunmuş hallar və Sizin razılığınız istisna olmaqla üçüncü şəxslərə verilmir.

Əgər siz artıq PAŞA Həyat Sığorta ASC-nin müştərisisinizsə, sığortalı və ya sığorta olunan olaraq sığorta sirri təşkil edən fərdi məlumatlarınızı qorumaq, “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası qanununa əsasən, PAŞA Həyat Sığorta ASC-nin öhdəliyidir.

## 2. Məlumat mənbələri.

a. Sizin tərəfinizdən təqdim edilən məlumatlar

Biz Sizin fərdi məlumatlarınızı yalnız sizin xəbəriniz olmaqla və razılığınızla toplamağa çalışırıq, və bu bir qayda olaraq, lakin bunlarla sərhədlənməyərək, xidmətlərdən istifadə etdiyiniz, müştəri sorğuları göndərdiyiniz və yaxud bizim suallarımıza cavab verdiyiniz zaman (məsələn, anketləri doldurduqda və ya sorğularda iştirak etdikdə) baş verir. Bu yolla əldə edilmiş fərdi məlumatlarınız tamamilə azad iradənizlə təmin etdiyiniz məlumatlardır. Sizdən tələb edilən məlumatların hamısını düzgün və tam olaraq qeyd etməlisiniz. Verdiyiniz məlumatların doğru və tam olmasına görə siz özünüz məsuliyyət daşıyırsınız. Yanlış və/və ya natamam məlumatların daxil edilməsi, tələb etdiyiniz sığorta məhsulunun etibarlılığını, sığorta təşkilatı olaraq bizim və/və ya sığorta vasitəçilərimizin sizə və/və ya sığortalıya qarşı olan məsuliyyətimizə və sığorta ödənişi tələblərinə təsir edə bilər. Belə olan halda PAŞA Həyat Sığorta heç bir məsuliyyət daşımır. Yanlış və/və ya natamam məlumat daxil etməyiniz ucbatından PAŞA Həyat Sığorta üçün yaranacaq hər cür zərərə görə siz məsuliyyət daşıyırsınız.

b. Digər mənbələrdən əldə edilən məlumatlar

Sığorta xidmətlərinin təşkil edilməsi, yeni sığorta hadisələrinin tənzimlənməsi və araşdırılması məqsədilə sizin müvafiq dövlət orqanları, maliyyə bazarlarına nəzarət orqanı və icbari sığorta bürosunun elektron informasiya daşıyıcılarında yerləşdirilmiş və ötürülməsi qanunvericiliklə qadağan olmayan fərdi məlumatlarınız da toplanıla bilər.

## 3. Məlumatlar hansı məqsədlə istifadə edilə bilər?

Bizə verilən açıq və konfidensial fərdi məlumatlarınızı aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmayan bir sıra məqsədlər üçün istifadə etməsinə razılıq verirsiniz:

- Sığorta müqaviləsinin tənzimlənməsi üçün (məs. istinad, anderraytinq, sığorta iddialarına baxılması)
- Bazar araşdırması, təhlil analitik məqsədləri və proses, xidmət və məhsulların təkmilləşdirilməsi üçün;
- Tədbirlərimiz, xidmətlərimiz, məhsullarımız və yeniliklərimiz barədə məlumat vermək üçün,
- Fırıldaqçılıq, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması və aşkarlanması üçün;
- Hər hansı bir qanuni öhdəliklərə (məsələn, vergi, mühasibat və inzibati öhdəliklər) riayət etmək üçün ;
- sığorta sistemində tənzimləmə və nəzarət funksiyalarının yerinə yetirilməsi ilə bağlı məsələlər üzrə maliyyə bazarlarına nəzarət orqanın yazılı tələbi əsasında həmin orqana, habelə maliyyə bazarlarına nəzarət orqanının səyyar yoxlama apardığı müddət ərzində müvafiq yoxlayıcılara təqdim etmək üçün.

## 4. Məlumatları əldə edə bilən subyektlər:

PAŞA Həyat Sığorta olaraq, fərdi məlumatlarınızın yuxarıda göstərilən məqsədlərlə və qanunvericiliyə uyğun olaraq aşağıda qeyd edilən üçüncü tərəflərlə bölüşə bilərik:

- Xidmətin təmin edilməsi məqsədilə fərdi məlumatlarınız PAŞA Həyat Sığorta tərəfindən dövlət orqanları, texniki dəstək göstərən İT şirkətləri, hüquqi və ya digər xidmət göstərən şirkətlər, sığorta agentləri, PAŞA Həyat Sığortanın aidiyyəti şəxsləri, təkrarsığortaçılar və "Sığorta fəaliyyəti haqqında" AR Qanunu ilə adları göstərilən digər şəxslərə ötürülə bilər;
- Hər hansı bir qanuni öhdəliyi yerinə yetirmək, o cümlədən sizə təqdim etdiyimiz məhsul və ya xidmətdən şikayət etdiyiniz təqdirdə müvafiq nəzarətedici orqanlara ötürülə bilər.

5. **Digər veb saytlara keçid.**

   Bu veb sayt vasitəsilə başqa veb saytlara keçidlər təqdim edilə bilər. PAŞA Həyat Sığorta digər veb saytların məzmununa və ya məxfilik siyasətinə görə məsuliyyət daşımır. Başqa veb saytlar fərqli formada öz məlumat toplama və məxfilik siyasətinə sahibdirlər. Buna görə də, bu veb sayt vasitəsilə keçid etdiyiniz digər veb saytların məxfilik siyasətini nəzərdən keçirməyiniz tövsiyə olunur.

6. **Digər istifadə şərtləri**

   PAŞA Həyat Sığorta, istənilən zaman və əvvəlcədən xəbərdar etmədən Məxfilik siyasətinin müddəalarına əlavələr etmək, onları dəyişdirmək və ya çıxarmaq hüququnu özündə saxlayır. Bu cür dəyişikliklər edildikdən sonra siz veb saytdan istifadə etməklə, bu dəyişiklikləri qəbul etmiş olursunuz.

   PAŞA Həyat Sığorta, veb saytda əks olunan məlumatların mütəmadi olaraq yenilənməsinə səy göstərəcək. Lakin, PAŞA Həyat Sığorta, İstifadəçi tərəfindən veb sayta daxil edilən məlumatların doğruluğu və tamlığına dair hər hansı zəmanət vermir.

   PAŞA Həyat Sığorta, öz qəsdi və ya kobud səhvindən yaranan birbaşa zərərlər istisna olmaqla, Veb saytın istifadəsi nəticəsində meydana gələ biləcək birbaşa və ya dolayı zərərə görə heç bir halda məsuliyyət daşımır.

   "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən İstifadəçi onun barəsində olan məlumatların toplanılmasına və işlənilməsinə etiraz etmək hüququna malikdir. İstifadəçinin etirazı bizə yazılı surətdə və ya onlayn qaydada təqdim olunmalıdır. İstifadəçilərin etirazının əsaslandırılması tələb olunmur.

**Son dəyişilmə tarixi: -------***2022*

# MƏXFİLİK SİYASƏTİ

**Giriş**

Hörmətli İstifadəçi, “WhatsApp" mobil tətbiqindən istifadə edərkən və təklif etdiyimiz xidmətlərdən yararlanarkən Sizinlə bağlı əldə olunan fərdi məlumatların hansı formada istifadə olunacağı və necə qorunacağı hazırkı “Məxfilik siyasəti”ndə (bundan sonra “Siyasət” adlandırılacaq) qeyd edilən qaydada tənzimlənir.

**Bu siyasət nəyi tənzimləyir?**

Bu Siyasət “PAŞA Həyat Sığorta” ASC (bundan sonra konteksdən asılı olaraq “PAŞA Həyat”, biz, bizə, bizim (və ya bu şəxs əvəzliyinin halları) kimi adlandırılacaq) sığorta şirkətinə məxsus “+994512300000” mobil nömrəsinə bağlı olan “WhatsApp” hesabında toplanan məlumatlara aiddir və bu hesab vasitəsilə bizə müraciət etdikdə Siz hazırkı Siyasətin şərtləri ilə razılaşdığınızı təsdiqləyirsiniz. Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq PAŞA Həyat Sizin tərəfinizdən “WhatsApp” hesabına daxil edilmiş və Sizinlə PAŞA Həyat arasında bağlanılmış sığorta müqaviləsi/sığorta müqavilələri üzrə fərdi və sığorta sirri təşkil edən məlumatları toplayır və işləyir. Siz “WhatsApp” mobil tətbiqi üzərindən bizimlə yazışma apararkən öz fərdi məlumatlarınızı daxil etməklə və sığorta müqaviləsini/sığorta müqavilələrini təsdiq etməklə həmin məlumatların PAŞA Həyat tərəfindən toplanılmasına və işlənilməsinə icazə vermiş olursunuz.

**Anlayışlar.**

- *PAŞA Həyat, biz, bizə, bizim (və ya bu şəxs əvəzliyinin halları) – “PAŞA Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyəti.*
- *İstifadəçi, Siz (və ya bu şəxs əvəzliyinin halları) – “WhatsApp” mobil tətbiqi üzərindən bizə müraciət edən fiziki şəxs.*
- *“WhatsApp” mobil tətbiqi – geniş ictimaiyyətə (Siz də daxil olmaqla) və bizneslərə (o cümlədən Bizə) ünsiyyət qurmaq imkanı yaradan mesajlaşma proqramı.*
- *“WhatsApp”hesabı – PAŞA Həyat-a məxsus “+994512300000” mobil nömrəsinə bağlı olan hesab.*
- *Fərdi məlumatlar – şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat. Bu Siyasətdə “Sığorta sirri” də “Fərdi məlumat” anlayışına daxildir.*
- *Xüsusi kateqoriyalı fərdi məlumatlar – fiziki şəxsin irqi və ya milli mənsubiyyətinə, ailə həyatına, dini etiqadına və əqidəsinə, səhhətinə və ya məhkumluğuna aid olan məlumatlar.*
- *Fərdi məlumatların toplanılması – fiziki şəxs barəsində fərdi məlumatların qanuna uyğun olaraq əldə edilməsi.*
- *Fərdi məlumatların işlənilməsi – fərdi məlumatlar üzərində aparılan əməliyyatlar (fərdi məlumatların yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanması, ötürülməsi, məhv edilməsi).*

**1. Fərdi məlumatları qoruma öhdəliyi.**

Konfidensial fərdi məlumatlarınızın məxfiliyinin qorunması bizim üçün vacib amillərdən biri olduğuna görə bununla bağlı tərəfimizdən lazımi texniki-təşkilati tədbirlər görülmüşdür. Tərəfimizdən toplanılacaq və işləniləcək fərdi məlumatlarınız müvafiq qanunla qorunur. Nəzərinizə çatdırırıq ki, “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin 2-ci bəndinin tələbinə uyğun olaraq konfidensial fərdi məlumatlarınız qanunla müəyyən olunmuş hallar və Sizin razılığınız istisna olmaqla üçüncü şəxslərə verilmir.

**Son dəyişilmə tarixi: -------***2022*

Əgər Siz artıq PAŞA Həyat-ın müştərisinizsə, sığortalı və ya sığorta olunan olaraq sığorta sirri təşkil edən fərdi məlumatlarınızı qorumaq "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bizim öhdəliyimizdir.

2. **Məlumat mənbələri.**

Sizinlə bağlı toplanılan məlumatlar Sizə ən uyğun və yüksək səviyyəli xidmət təqdim etməyimizə və göstərilən xidmətlərin səviyyəsini artırmağımıza yönəlir. Bu məlumatlar aşağıda qeyd edilən formalarda əldə edilir:

- Sizin tərəfinizdən təqdim edilən məlumatlar
  "WhatsApp" mobil tətbiqindən istifadə edərək daxil etdiyiniz məlumatlar tərəfimizdən toplanılır. Bu yolla əldə edilmiş fərdi məlumatlarınız tamamilə azad iradənizlə təqdim etdiyiniz məlumatlardır. Sizə yüksək səviyyəli və ən əsası düzgün xidmət göstərə bilməyimiz üçün "WhatsApp" hesabımıza Sizdən tələb edilən məlumatların hamısını düzgün və tam olaraq qeyd etməlisiniz. Bundan başqa tələb etdiyiniz xidmətin təşkili üçün lazım olan məlumatları daxil etmədiyiniz təqdirdə tələbinizi icra etməyin mümkün olmayacağını nəzərə almalısınız. Verdiyiniz məlumatların doğru və tam olmasına görə Siz özünüz məsuliyyət daşıyırsınız. Yanlış və/və ya natamam məlumatların daxil edilməsi tələb etdiyiniz sığorta məhsulunun etibarlılığına, sığorta təşkilatı olaraq bizim və/və ya sığorta vasitəçilərimizin Sizə və/və ya sığortalıya qarşı olan məsuliyyətimizə və sığorta ödənişinə təsir edə bilər. Belə olan halda PAŞA Həyat heç bir məsuliyyət daşımır. Yanlış və/və ya natamam məlumat daxil etməyiniz səbəbindən PAŞA Həyat üçün yaranacaq hər cür zərərə görə Siz məsuliyyət daşıyırsınız.

- Digər mənbələrdən əldə edilən məlumatlar
  Sığorta xidmətlərinin təşkil edilməsi, sığorta hadisələrinin tənzimlənməsi və araşdırılması məqsədilə Sizin müvafiq dövlət və səlahiyyətli orqanlar, maliyyə bazarlarına nəzarət orqanı və İcbari Sığorta Bürosunun elektron informasiya daşıyıcılarında yerləşdirilmiş və ötürülməsi qanunvericiliklə qadağan olunmayan fərdi məlumatlarınız da toplanıla bilər. Bu məlumatların alınması üçün Sizin razılığınız tələb olunduğu təqdirdə həmin razılığın alınması təmin ediləcəkdir.

3. **Hansı məlumatlar toplanacaq?**

a. Müxtəlif fərdi məlumatlar toplanılıb emal ediləcək:

- Ad, soyad və ata adı;
- Ünvan;
- İşlədiyiniz yerin adı, sahibkarlıq fəaliyyəti və ya vəzifə/peşə;
- Əlaqə məlumatlar;ı.
- Sizin tərəfinizdən təqdim edilən, sığorta hadisəsinin tənzimlənməsi üçün istifadə edilə biləcək hər hansı digər məlumat.

b. Təklif etdiyimiz sığorta məhsulundan asılı olaraq Azərbaycan Respublikasının qanunları ilə xüsusi kateqoriyalı fərdi məlumatlar hesab edilən məlumatlar da tərəfimizdən qanunvericiliyə uyğun olaraq toplanıla və işlənilə bilər:

- Səhhətinizlə bağlı məlumatlar.

4. **Məlumatların işlənilməsi.**

Bizə verilən açıq və konfidensial fərdi məlumatlarınızı aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq bir sıra məqsədlər üçün istifadə edəcəyik:

- *Sığorta müqaviləsinin tənzimlənməsi üçün (məsələn, istinad, anderraytinq, sığorta hadisələrinə baxılması və araşdırılması);*
- *Bazar araşdırması, təhlil-analitik məqsədlər, proses, xidmət və məhsulların təkmilləşdirilməsi üçün;*

- *Tədbirlərimiz, xidmətlərimiz, məhsullarımız və yeniliklərimiz barədə məlumat vermək üçün;*
- *Fırıldaqçılıq, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi üzrə monitorinq aparılması üçün;*
- *Hər hansı bir qanuni öhdəliklərə (məsələn, vergi, mühasibat və inzibati öhdəliklər) riayət etmək üçün;*
- *Sığorta sistemində tənzimləmə və nəzarət funksiyalarının yerinə yetirilməsi ilə bağlı məsələlər üzrə maliyyə bazarlarına nəzarət orqanının yazılı tələbi əsasında həmin orqana, habelə maliyyə bazarlarına nəzarət orqanının səyyar yoxlama apardığı müddət ərzində müvafiq yoxlayıcılara təqdim etmək üçün;*
- *Müvafiq qanun və qaydaların Sizin razılığınızı almağımızı tələb etmədiyi hallar istisna olmaqla, fərdi məlumatlarınız yalnız Sizin razılığınızla digər tərəfə ötürülə bilər.*

## 5. Məlumatları əldə edə bilən subyektlər

PAŞA Həyat Sığorta olaraq, fərdi məlumatlarınızın yuxarıda göstərilən məqsədlərlə və qanunvericiliyə uyğun olaraq aşağıda qeyd edilən üçüncü tərəflərlə bölüşə bilərik:

- *Xidmətin təmin edilməsi məqsədilə fərdi məlumatlarınız PAŞA Həyat Sığorta tərəfindən dövlət orqanları, texniki dəstək göstərən İT şirkətləri, hüquqi və ya digər xidmət göstərən şirkətlər, sığorta agentləri, PAŞA Həyat Sığortanın aidiyyəti şəxsləri, təkrarsığortaçılar və "Sığorta fəaliyyəti haqqında" AR Qanunu ilə adları göstərilən digər şəxslərə ötürülə bilər;*
- *Hər hansı bir qanuni öhdəliyi yerinə yetirmək, o cümlədən sizə təqdim etdiyimiz məhsul və ya xidmətdən şikayət etdiyiniz təqdirdə müvafiq nəzarətedici orqanlara ötürülə bilər.*

## 6. Digər veb-saytlara keçid

"WhatsApp" mobil tətbiqi üzərindən başqa veb-saytlara keçidlər təqdim edilə bilər. PAŞA Həyat digər veb-saytların məzmununa və/və ya məxfilik siyasətinə görə məsuliyyət daşımır. Başqa veb-saytlar fərqli forma tətbiq etməklə öz məlumat toplama və məxfilik siyasətinə sahibdirlər. Buna görə də, keçid etdiyiniz digər veb-saytların məxfilik siyasətini nəzərdən keçirməyiniz tövsiyə olunur.

## 7. Digər istifadə şərtləri

PAŞA Həyat istənilən zaman və əvvəlcədən xəbərdar etmədən "Məxfilik siyasəti"nin müddəalarına əlavələr etmək, onları dəyişdirmək və ya çıxarmaq hüququnu özündə saxlayır. Bu cür dəyişikliklər edildikdən sonra Siz "WhatsApp" mobil tətbiqindən istifadə etməklə bu dəyişiklikləri qəbul etmiş olursunuz.
PAŞA Həyat "WhatsApp" hesabında əks olunan məlumatların mütəmadi olaraq yenilənməsinə səy göstərəcək. Lakin PAŞA Həyat İstifadəçi tərəfindən "WhatsApp" hesabına daxil edilən məlumatların doğruluğu və tamlığına dair hər hansı zəmanət vermir.
PAŞA Həyat öz qəsdi və ya kobud səhvindən yaranan birbaşa zərərlər istisna olmaqla "WhatsApp" mobil tətbiqindən istifadə edilməsi nəticəsində meydana gələ biləcək birbaşa və ya dolayı zərərə görə heç bir halda məsuliyyət daşımır.
"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən İstifadəçi onun barəsində olan məlumatların toplanılmasına və işlənilməsinə etiraz etmək hüququna malikdir. İstifadəçinin etirazı bizə yazılı surətdə və ya onlayn qaydada təqdim olunmalıdır. İstifadəçilərin etirazının əsaslandırılması tələb olunmur.